# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR!


*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

26 iyun 2026-cı il №22 (9176) www.muallim.edu.az muallim@media.edu.az


# Biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik



# AZƏRBAYCAN ORDUSU:

## Gücün, Qürurun, Zəfərin Simvolu



## “QIZLARIN TƏHSİLİNƏ DƏSTƏK”




İyunun 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə “Qızların təhsilinə dəstək” layihəsinin II Məzun Günü keçirilib.

Bax səh.3

## "ŞUŞANI QALİBLƏR SIRASINDA TƏMSİL ETMƏK QAZANDIĞIM UĞURUN ƏN DƏYƏRLİ HİSSƏSİDİR"



“Bu gün medalçılar sırasında yer almaq mənim üçün böyük qürurdur. Sevincliyəm, həm də ona görə ki, doğma Şuşamızın Uşaq-Gənclər İdman Məktəbini təmsil edirəm. Medal qazanmağım həyatımın ən dəyərli unudulmaz anlarından biridir. Yarış zamanı yalnız özüm üçün deyil, təmsil etdiyim Şuşa üçün də çıxış etdiyimi hiss edirdim”.

Bax səh.5

## VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI 58 BAL TOPLADI



“İmtahandan uğurla keçmiş hər bir müəllimə fəaliyyətində uğurlar arzulayıram və hər bir müəllimə öz üzərində daim işləməyi, mütaliə etməyi və ən əsası, şagirdləri öyrətməyə çalışmağı tövsiyə edirəm. Çünki ən yaxşı öyrənmək öyrətməkdən keçir”.

Bax səh.7

## “Birincilərin birincisi”

Bax səh.3

## “Müəllimlik bu gün rəqabətli peşədir”

Bax səh.4

## “İlk müəllimim demişdi ki, Olimpiya çempionu olacaqsan”

Bax səh.6

## Süni intellekt dövründə oyunlaşdırma

Bax səh.7

# AZƏRBAYCAN ORDUSU:

# Gücün, Qürurun, Zəfərin Simvolu



**Hər bir xalqın dövlətçilik tarixində qürurla xatırladığı günlər var. Azərbaycan xalqı üçün belə günlərdən biri 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Bu tarix təkcə peşə bayramı deyil, həm də dövlətimizin gücünü, müstəqilliyini və təhlükəsizliyini təmin edən Milli Ordumuza verilən yüksək dəyərin ifadəsidir. Bu gün Azərbaycan Ordusu regionun ən güclü silahlı qüvvələrindən biri kimi tanınır. Lakin bu güc birdən-birə formalaşmayıb. Onun arxasında uzun illər ərzində həyata keçirilən məqsədyönlü dövlət siyasəti, peşəkar kadr hazırlığı və milli maraqlara söykənən strateji yanaşma dayanır. Bu uğurlu yolun konsepsiyası isə Ümummilli Lider Heydər Əliyev tərəfindən hazırlanıb.**

## Ulu Öndər Heydər Əliyevin hərbi təhsil siyasəti

### Hərbi təhsilin banisi

Milli ordumuzun inkişaf tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək yaxşı bilirdi ki, güclü dövlətin dayaqlarından biri güclü ordudur. Məhz buna görə o, hələ sovet dövründə respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət ayırırdı. Sovet dövründə azərbaycanlı zabitlərin sayı kifayət qədər az idi və milli hərbi kadr potensialının formalaşdırılması mühüm vəzifə kimi qarşıda dururdu. Ümummilli Lider bu problemi uzaqgörənliklə qiymətləndirərək hərbi təhsil sahəsində mühüm addımlar atdı. Azərbaycanda hərbi təmayüllü məktəblərin fəaliyyətinin genişləndirilməsi, gənclərin hərbi peşəyə marağının artırılması və vətənpərvərlik ruhunda tərbiyəsi onun diqqət mərkəzində idi.

Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı. Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı. Ümummilli Lider Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində Azərbaycandan kənarda keçmiş SSRİ-nin apancı ali məktəblərində milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də hərbi milli kadrların yetişdirilməsi yolundakı tarixi xidmətləridir. 70-80-ci illərin ən əhəmiyyətli haıdisələrindən biri kimi orta və ali hərbi təhsil sisteminin yaradılması ilə yanaşı, həmin illərdə keçmiş SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin sistemli şəkildə göndərilməsi qeyd olunmalıdır. Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı ilə 1972-ci ildən etibarən hər il 300-400, 1970-ci illərin sonu və 80-ci illərin əvvəllərindən Azərbaycandan kənara ildə 800-900 nəfər gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. Məhz 70-80-ci illərdə yaradılan baza hərbi məktəbləri, eləcə də respublikadan kənarda təhsil almış milli kadrlar hesabına bu gün müstəqil Azərbaycanın ordu quruculuğu və milli hərbi sistemi formalaşıb, məhz o illərdə yaradılan təməl üzərində qurulub. Beləliklə 1970-1980-ci illərdə dahi liderin böyük uzaqgörənliklə istər mülki, istər hərbi ixtisaslar üzrə respublikadan kənar təhsil müəssisələrində kadr hazırlığı siyasətinin bu gün müstəqil Azərbaycanın xoşbəxt gələcəyi üçün nə qədər böyük əhəmiyyət daşıdığının şahidi oluruq. Ulu Öndər sonralar deyirdi: "1970-ci illərin axırında biz hər il Sovetlər İttifaqının cürbəcür şəhərlərində yerləşən təxminən 45-dən artıq hərbi məktəbə təhsil almaq üçün Azərbaycandan ümumən 800-900 nəfər gənc göndərirdik. Bunların hamısını edərkən biz öz xalqımız haqqında düşünürdük. Düşünürdük ki, xalqımızda hərbi peşə itməsin, - çar Rusiyası vaxtı demişdilər ki, "müsəlmanlar orduda qulluq edə bilməz", - xalqımız hərbi peşədən məhrum olmasın. Mən eyni zamanda o vaxt düşünürdüm ki, gələcəkdə bu bizə lazım olacaqdır".

Ordu sahəsində ən böyük uğurlardan biri o oldu ki, Heydər Əliyev 1971-ci ildə böyük zəhmətlər bahasına Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu. Bu məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdı.

Ulu Öndər 17 iyun 2002-ci ildə C.Naxçıvanski adına hərbi liseyin yaradılması sahəsində işləri belə qiymətləndirirdi: "Biz bu işi başlayanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə baxış idi. Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanda milli zabit kadrlarının hazırlanması üçün ilk addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığını əldə edəcək, dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaqdır".

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra C.Naxçıvanski adına Hərbi Məktəb ordu quruculuğunun əsas bazalarından birinə çevrildi. Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması mümkün oldu. Bu təşəbbüslər sonradan milli zabit korpusunun formalaşmasında mühüm rol oynadı.

Bu səbəbdən Heydər Əliyevin Azərbaycanda hərbi təhsilin banisi kimi dəyərləndirilməsi təsadüfi deyil. Ulu Öndərin yaratdığı kadr potensialı sonrakı dövrlərdə milli ordu quruculuğunun əsas sütunlarından birinə çevrildi. Müstəqilliyin ilk illərində ölkənin üzləşdiyi mürəkkəb vəziyyətə baxmayaraq, məhz bu təcrübə və dövlətçilik yanaşması Azərbaycan Ordusunun formalaşmasına imkan verdi.

Nəticə etibarilə, Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərliyə başlamasından sonra milli hərbi kadr hazırlığı sahəsində həyata keçirdiyi tədbirlər ölkəmizin dövlətçilik tarixində mühüm yer tutur. Ümummilli Liderin uzaqgörən siyasəti sayəsində yaradılmış hərbi kadr potensialı müstəqil Azərbaycanın ordu quruculuğunun əsasını təşkil edib, dövlətimizin müdafiə qüdrətinin möhkəmlənməsinə əvəzsiz töhfələr verib. Bu siyasət xalqımıza Şanlı Zəfəri qazandırdı. Bu xidmətlər Azərbaycan xalqının yaddaşında daim yaşayacaq və gələcək nəsillər üçün örnək olaraq qalacaq.

### Nizami ordu quruculuğu prosesinə start

Müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik edənlər Ermənistanın torpaqlarımızı işğal etdiyi bir vaxtda ordu quruculuğu kimi vacib və məsuliyyətli işin öhdəsindən gələ bilmədilər. Həmin dövrdə nizami ordudan əsər-əlamət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Azərbaycan müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir ağır vaxtda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev nizami ordu quruculuğu prosesinə start verdi.

Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi ilə Azərbaycan Ordusunun formalaşdırılması prosesinə başlanılması yeni mərhələyə qədəm qoydu. Heydər Əliyev dövlət quruculuğu ilə yanaşı, ordu quruculuğunu da prioritet istiqamət elan etdi. Qısa müddətdə nizami ordu formalaşdırıldı, vahid komandanlıq sistemi yaradıldı, hərbi intizam gücləndirildi və Silahlı Qüvvələrin inkişaf strategiyası müəyyən edildi. Ordu quruculuğunun əsas tərkib hissəsi olan hərbi təhsil, ixtisaslı hərbi kadrların hazırlanması prosesi də daim diqqət mərkəzində idi. Əsası C.Naxçıvanski adına hərbi liseylə qoyulan hərbi təhsil müəssisələrinin sayı nüfuzlu ali hərbi təhsil ocaqları hesabına daha da genişləndi.

1994-cü il mayın 12-də atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.

Ümummilli Lider 14 sentyabr 1994-cü il tarixində respublikanin ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşdəki nitqində bu barədə bildirirdi: "Biz ordu quruculuğuna daim diqqət yetiririk. Ordumuzun möhkəmlənməsi həm bu gün Azərbaycanın müdafiəsi üçün lazımdır, həm də gələcəkdə müstəqil Azərbaycanın suveren bir dövlət kimi yaşaması üçün vacibdir. Azərbaycan müstəqildir və daim müstəqil olacaqdır. Bunun üçün Azərbaycanın güclü dövlət orqanları olmalıdır, dövlət quruculuğu prosesi həyata keçirilməlidir. Azərbaycanın müstəqilliyini qorumaq üçün onun güclü ordusu olmalıdır".

Ordu quruculuğu sahəsində davamlı işlərin nəticəsi olaraq 1997-ci ildə Azərbaycan Ali Hərbi Məktəbi yaradıldı. Bu gün Azərbaycan ordusunda Ali Hərbi Məktəbin yüzlərlə məzunu şərəf və məsuliyyətlə xidmət göstərməkdədir. 2001-ci ildə Heydər Əliyevin fərmanı ilə məktəb Azərbaycan Ali Hərbi Məktəbi olaraq adlandırılıb. Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzaladı. 20 avqust 2001-ci il tarixli Fərman ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

Heydər Əliyev qeyd edirdi ki, "Müstəqillik dövründə qazandığımız ən mühüm nailiyyətlərdən biri milli odumuzun yaradılması olmuşdur".

Ulu Öndər gənclərə hərbi peşəni ən dəyərli peşə hesab edirdi. 20 iyun 2001-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbində keçirilən görüşdəki nitqində Heydər Əliyev bildirdi: "Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir - yəni hərbi peşədir".

Müstəqillik illərində Heydər Əliyev ordunun vətənpərvərlik, şəxsi heyətinin milli-mənəvi dəyərlər ruhunda formalaşdırılmasını mühüm vəzifə kimi qoyurdu: "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər",

### Müstəqilliyimiz və Suverenliyimizin dayağı

Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. "Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır"- deyən Ulu Öndərin müəyyən etdiyi ordu quruculuğu strategiyasını uğurla davam və inkişaf etdirən Prezidenti Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı.

Rəşadətli Ordumuz öz gücünü 2016-cı ilin aprel ayında sübut etdi. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qəhrəman Ordumuz 2020-ci il sentyabrın 27-də erməni təxribatlarının qarşısını almaq üçün əks-hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində Qələbə qazanaraq tarixi Zəfərə imza atdı. 2023-cü ilin sentyabrında isə birgünlük antiterror tədbirləri nəticəsində Qarabağda erməni separatizmi məhv edildi və dövlətimizin suverenliyi tam təmin olundu.

2020-ci ildə Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər təkcə döyüş meydanında əldə edilmiş uğur deyildi. Bu, illərlə aparılan məqsədyönlü hazırlığın, güclü dövlət idarəçiliyinin, peşəkar hərbi təhsilin və xalq-ordu birliyinin məntiqi nəticəsi idi. Azərbaycan əsgəri döyüş meydanında nümayiş etdirdiyi qəhrəmanlıqla bütün dünyaya sübut etdi ki, Vətən sevgisi, peşəkarlıq və yüksək döyüş ruhu qarşısında heç bir maneə davam gətirə bilməz. Qazanılan Zəfər həm də göstərdi ki, vaxtilə Heydər Əliyevin əsasını qoyduğu hərbi quruculuq siyasəti öz strateji məqsədinə çatıb.

Bu gün Azərbaycan Ordusu dövlətimizin, müstəqilliyimizin qarantıdır. Ümummilli Liderin layiqli davamçısı Prezidenti Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Ordumuzun gücü sayəsində torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tarixində xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə sabitliyin qorunması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi güclü Ordunun, vətənpərvərlik ruhunun yüksək səviyyədə olmasının göstəricisidir.

Şanlı Zəfərdən sonrakı illərdə də ordu quruculuğu sahəsində tədbirlər davam etdirildi. Milli ordunun döyüş qabiliyyətliliyinin daha da möhkəmləndirilməsi, hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradıldı. Milli Müdafiə Universitetinin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 mart tarixli Fərmanı ilə "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişikliklər edildi. Silahlı Qüvvələrin Hərbi Akademiyası təhsil müəssisəsi kimi ləğv olundu, onun maddi-texniki bazası əsasında iki müstəqil institut yaradıldı: Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitut kimi davam etdirir. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Heydər Əliyev adına Hərbi Lisey də Milli Müdafiə Universitetinin tabeliyinə verildi.

Bu gün Azərbaycan xalqı milli ordumuzun qəhrəmanlıq salnaməsindən qürur hissi ilə danışır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik".

26 İyun həm keçmişə ehtiram, həm də gələcəyə inam günüdür. Bu gün biz şəhidlərimizin əziz xatirəsini minnətdarlıqla yad edir, qazilərimizin qəhrəmanlığını yüksək qiymətləndirir və Azərbaycan əsgərinə dərin hörmətimizi ifadə edirik. Çünki Azərbaycan Ordusu dövlətimizin gücü, xalqımızın qüruru və tarixi Zəfərimizin ən möhtəşəm simvollarından biridir.

**Oruc MUSTAFAYEV**

# "QIZLARIN TƏHSİLİNƏ DƏSTƏK"

## Layihəsinin II Məzun Günü keçirilib

**İyunun 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə "Qızların təhsilinə dəstək" layihəsinin II Məzun Günü keçirilib.**










AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında qızların təhsilinin cəmiyyətin inkişafında mühüm rol oynadığını vurğulayaraq bildirib ki, layihə artıq davamlı təşəbbüsə çevrilib və bu il proqram üzrə 66 qız məzun adını qazanıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, son beş ildə layihənin müxtəlif proqramlarından 593 nəfər yararlanıb. O, layihənin yüzlərlə qadın və qız üçün yeni imkanlar yaratdığını diqqətə çatdırıb.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli isə bildirib ki, Fondun həyata keçirdiyi müxtəlif təqaüd və inkişaf proqramları üzrə ümumilikdə 489 iştirakçı dəstək alıb. Onun sözlərinə görə, proqramlar gənc qızların təhsil və karyera imkanlarının genişlənməsinə xidmət edir.

Tədbirdə layihənin builki məzunları təbrik edilib, onlara gül dəstələri təqdim olunub. Daha sonra bədii proqram nümayiş olunub.

Qeyd edək ki, "Qızların təhsilinə dəstək" layihəsi qızların ali təhsilə çıxışının genişləndirilməsi və onların gələcək inkişafının dəstəklənməsi məqsədilə həyata keçirilir.

# "BİRİNCİLƏRİN BİRİNCİSİ"





## Elm və təhsil naziri Respublika Fənn Olimpiadalarının ən yüksək nəticə göstərən qalibləri ilə görüşüb

**İyunun 24-də elm və təhsil naziri Emin Əmrullayev Respublika Fənn Olimpiadalarında yüksək nəticə göstərərək "Birincilərin birincisi" adına layiq görülən şagirdlərlə görüşüb.**

Görüş zamanı olimpiadaçılar beynəlxalq yarışlara hazırlıq prosesi, əldə etdikləri nailiyyətlər və gələcək hədəfləri barədə danışıblar.

Elm və təhsil naziri Emin Əmrullayev şagirdləri qazandıqları yüksək nailiyyət münasibətilə təbrik edərək onların uğurlarını ölkənin intellektual potensialının və təhsil sistemində həyata keçirilən məqsədyönlü fəaliyyətin mühüm göstəricilərindən biri kimi qiymətləndirib. Nazir qeyd edib ki, yerli və beynəlxalq olimpiadalarda əldə olunan nəticələr Azərbaycan gənclərinin elmə, tədqiqata və bilik yarışlarına marağının ildən-ilə artdığını nümayiş etdirir.

Görüşdə olimpiada hərəkatının inkişafı, istedadlı şagirdlərin dəstəklənməsi və onların gələcək akademik inkişaf imkanları ətrafında fikir mübadiləsi aparılıb. Şagirdləri maraqlandıran suallar cavablandırılıb, onlara gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Sonda xatirə şəkli çəkdirilib.

# ADNSU - da "Məzun Günü 2026" xoş anlarla yadda qalıb






**İyunun 23-də Bakı Kristal Zalında Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) "Məzun Günü 2026" tədbiri keçirilib. Tədbirdə universitetin məzunları, tələbələri, professor-müəllim heyəti, dövlət rəsmiləri və tərəfdaş qurumların nümayəndələri iştirak ediblər.**

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

ADNSU-nun rektoru, dosent Rüfət Əzizov açılış nitqi ilə çıxış edərək universitetin inkişaf istiqamətlərindən, müasir təhsil sisteminin qurulması istiqamətində həyata keçirilən yeniliklərdən, eləcə də ADNSU-nun beynəlxalq reytinqlərdə yüksələn dinamika ilə əldə etdiyi uğurlardan danışıb. Rektor çıxışı zamanı universitet tələbələrinin qazandıqları nailiyyətlərdən və məzunların ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrdən də bəhs edib. O bildirib ki, iqtisadiyyatın müxtəlif sahələrində, istehsalat müəssisələrində, eləcə də ölkənin neft-qaz sektorunda əvvəlki illərdə olduğu kimi, bu gün də ADNSU məzunlarına yüksək tələbat mövcuddur. Rektor qeyd edib ki, məzunların işlə təmin olunma göstəricisi 96 faiz təşkil edir. Sonda o, məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayaraq ADNSU-nun adını daim yüksəklərdə saxlayacaqlarına inandığını bildirib.

Daha sonra 2025/2026-cı tədris ilinin əsas nailiyyətlərini əks etdirən qısa videoçarx nümayiş olunub. Videoçarxda universitetin tədris, elm, innovasiya, beynəlxalq əməkdaşlıq və tələbə həyatı ilə bağlı mühüm məqamlar təqdim edilib.

Tədbirdə Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov çıxış edərək gənclərin inkişafında ali təhsilin əhəmiyyətindən danışıb, məzunların əldə etdikləri bilik və bacarıqları ölkənin inkişafına yönəltmələrinin vacibliyini vurğulayıb. Nazir məzun olmaları münasibəti ilə gəncləri təbrik edərək onlara uğurlar arzu edib.

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev çıxışında ölkədə həyata keçirilən təhsil islahatlarından, universitetlərin qarşısında duran yeni vəzifələrdən və gənc mütəxəssislərin əmək bazarındakı rolundan bəhs edib. Nazir müavini, məzunlara gələcək karyeralarında uğurlar arzulayıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov çıxışında gənclərin ölkənin inkişafında mühüm rol oynadıqlarını vurğulayıb və məzunları təbrik edib.

BP şirkətinin Xəzər regionu üzrə xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə universitet—sənaye əməkdaşlığının əhəmiyyətini vurğulayaraq ADNSU məzunlarının enerji sektorunda uğurla fəaliyyət göstərdiklərini diqqətə çatdırıb.

Rəsmi hissədə müxtəlif sahələrdə fərqlənən tələbələr mükafatlandırılıb, ənənəvi "İlin məzunu estafeti" təqdim olunub. Həmçinin, 2025/2026-cı tədris ilində ən yüksək qiymət ortalaması ilə fərqlənən üç məzuna — Murad Bağırzadə, Taisiya Kudryavtseva və Nigar Əzimovaya xüsusi hədiyyələr təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib. ADNSU-nun "Gənclik" Mahnı və Rəqs Ansamblının təqdim etdiyi "Məhsul" rəqsi, UFAZ-ın özfəaliyyət qrupunun musiqi nömrələri və ADNSU-nun əcnəbi tələbələri tərəfindən səsləndirilən "Azərbaycana gəlsin!" şeiri iştirakçılar tərəfindən maraqla qarşılanıb.



"Məzun Günü 2026"nın musiqili qonaqları Xalq artisti Miri Yusif və müğənni Murad Arif olub.

# "MÜƏLLİMLİK BU GÜN RƏQABƏTLİ PEŞƏDİR"

## Emin Əmrullayev elm və təhsil gündəminin aktual məsələləri ilə bağlı mediaya müsahibə verib

**Elm və təhsil naziri Emin Əmrullayevin Xəzər TV, APA və Trend İnformasiya Agentliklərinə verdiyi müsahibədə Azərbaycan elm və təhsil sistemində aparılan islahatlar, məktəbəqədər, ümumi, peşə və ali təhsilin inkişafı, tədrisin keyfiyyəti, rəqəmsallaşma, gələcəyin təhsil modeli və digər aktual məsələlər müzakirə olunub. Nazir həmçinin müəllimlərin sertifikatlaşdırılması, məktəblərin rasionallaşdırılması, repetitorluq, dərsliklərin məzmunu, süni intellektin təhsildə tətbiqi və təhsildə keyfiyyətin artırılması istiqamətində görülən işlər barədə fikirlərini bölüşüb.**




## Elm və təhsil naziri: "Sertifikasiya prosesi Azərbaycan məktəbinə rəqabət gətirməklə yanaşı, tədrisin keyfiyyətini də yaxşılaşdırır"

**Bu gün tələbə kontingentinin təxminən üçdə ikisi Bakı və onun ətrafında, üçdə biri isə Bakının kənarında yerləşən ali təhsil müəssisələrində təhsil alır. Son illərdə tələbələrin sayı artmaqdadır. Çünki ali təhsil daha əlçatan olub, qəbul planlarımız artır.**

İkinci məqam ondan ibarətdir ki, bu prosesə yalnız köçürmə üsulu ilə yanaşmaq düzgün olmaz. Elə köklü universitetlərimiz var ki, onların yüzillik tarixi mövcuddur. Həmin universitetləri köçürməkdən daha çox, tələbə kontingentinin sayını azaldıb, keyfiyyəti artırmaq istiqamətində işləməliyik. Bu istiqamətdə fəaliyyətimiz artıq iki ildir davam edir.

Əgər biz iki min manata kompüter mühəndisi hazırlamaq istəyiriksə, təbii ki, tələbə üçün bunun ucuz olması yaxşıdır. Amma təhsil nə qədər ucuzdursa, keyfiyyətin təmin edilməsi bir o qədər çətinləşir. Keyfiyyətlə dəyər arasındakı əlaqəni tamamilə pozmaq mümkün deyil. Keyfiyyəti artırmaq üçün maliyyələşməni artırmağa məcburuq. Bu istiqamətdə "SABAH qrupları" vacib həll yollarından biridir. Eyni zamanda, təhsil haqqını artırmaq mümkün deyilsə, universitetlər tələbə sayını artırmağa məcbur olur. Bu zaman isə kəmiyyətlə keyfiyyət arasında tərs mütənasiblik yaranır. Ona görə də bir çox ali təhsil müəssisələrimizdə tələbə sayının artması təhsil keyfiyyətinin azalmasına səbəb ola bilir. Həyata keçirdiyimiz islahatların məqsədi ondan ibarətdir ki, ciddi sosial narazılıq yaratmadan ali təhsilin keyfiyyətini yüksəldək və eyni zamanda şəhərdə sıxlığın artmasına təsir etmədən regional universitetləri inkişaf etdirərək tələbələrin regionlarda təhsil almasına nail olaq.

**Repetitorluq tədris proqramına əlavə olaraq, valideynin öz vəsaiti hesabına övladı üçün əlavə dərs təşkil etməsidir. Bu, özlüyündə yaxşıdır, yoxsa pisdir? Məncə, burada problem yoxdur. İstənilən valideyn övladını skripka və ya piano dərsinə qoya bilər. Belə bir hüququ var. Eyni şəkildə, riyaziyyat, kimya və digər fənlər üzrə də övladına əlavə dərs keçirmək hüququndan yararlana bilər.**

Əgər repetitor həmin uşağa səhər növbəsində dərs deyən müəllimdirsə və günortadan sonra yenidən ona repetitorluq edirsə, burada problem var. Problemlərdən biri etik problemdir, digəri isə məntiqsizlikdir. Müəllim bu uşağa riyaziyyatı öyrədə bilirsə, məktəbdə də öyrədə bilər.

Müəllim məktəbdə dərs deyir, şagird və ya valideyn bundan razı deyil və başqa bir müəllimin yanına getmək istəyirsə, bu, ayrı mövzudur. Bu da problem ola bilər, amma fərqli bir problemdir. Bir məsələ də ondan ibarətdir ki, repetitorluq niyə bu qədər geniş vüsət alıb? Bunun kökünü ali təhsilə qəbul sistemində və Azərbaycan cəmiyyətinin ali təhsilli olmağın dəyərinə baxışında axtarmaq lazımdır.

**Azərbaycan təhsilində ən çətin işlə məşğul olanlar müəllimlərdir. Onlarla əməkdaşlıq etmək, müəllimlərin ehtiyaclarını anlamaq vacibdir. Çünki sinif otağında uşağa dərs deyən müəllimdir. Bu istiqamətdə daha yaxşı tədris edən, tədrisi daha yaxşı təşkil edən müəllimlərimizin sayının artması təhsilin uzunmüddətdə daha yaxşı olmasını təmin edəcək.**

Yaxşı müəllimlər yalnız öz fənnini bilən müəllimlər deyil. Yaxşı müəllim həm də əməkdaşlıq edə, yaxşı qiymətləndirə bilən müəllimdir. Yaxşı qiymətləndirən müəllim yüksək qiymət yazan müəllim deyil. Yaxşı müəllim şagirdlə geri dönüş edib onun boşluqlarını izah edən müəllimdir. Soruşsanız ki, biz nəyi dəyişməliyik, məncə, qiymətləndirmədə əsaslı dəyişikliklərimiz olmalıdır.

Məktəb əməkdaşlıq edən bir mühitdir. Bunun üçün də müəllim məktəbdə daha çox vaxt keçirməlidir.

Tam ştatlı müəllim məsələsi həm müəllimin işinin keyfiyyətinin artırılması, həm də əməkhaqqısının artırılması baxımından vacib islahat ola bilər. Amma bu, dediyim kimi, hazırda müzakirə olunan məsələdir. Yəqin ki, yaxın gələcəkdə bununla bağlı təkliflər olacaq. Müəllimin əməkhaqqısı bu şərtlər çərçivəsində orta əməkhaqqından yüksək olmalıdır.

**Təhsilin keyfiyyətini, həm də maliyyə səmərəliliyini təmin etmək üçün kiçik məktəblərin daha böyük məktəblərlə inteqrasiyası və şagirdlərin həmin məktəblərə daşınması yolu ilə hazırda rasionallaşdırma prosesi həyata keçirilir.**

Bu yolla Azərbaycan təhsil büdcəsində əhəmiyyətli vəsaitə qənaət olunur: Həmin vəsait müəllimlərin əməkhaqlarının artırılmasına, ümumilikdə isə təhsildə yeni islahat və innovasiyaların tətbiqinə yönəldilir.

Kiçik məktəblərdə təhsil alan şagirdlərin daha böyük məktəblərə keçməsi onların həm sosial mühitinin, həm də təhsil keyfiyyətinin yaxşılaşmasına xidmət edir. Daha böyük məktəbdə şagirdin daha zəngin sosial mühitdə olması və daha keyfiyyətli tədrislə əhatə olunması nəzərdə tutulur. Bu prosesdə kifayət qədər narahatlıq doğuran məqamlar var. Birincisi, şagirdi bir məntəqədən digərinə daşımaq asan deyil. Lakin bu iki məqsədə nail olduqda əldə etdiyimiz faydanın, prosesin yaratdığı mənfi nəticələrdən dəfələrlə çox olduğunu düşündüyümüz üçün islahatın həyata keçirilməsini olduqca vacib hesab edirik.

Bu il bir neçə bölgədə bu tip məktəblərdə distant təhsilin təşkili sınaqdan keçirilib və ilkin nəticələr müsbətdir. Daha keyfiyyətli müəllimin distant üsulla kənddə yaşayan uşağa dərs keçməsi müsbət nəticələr verir.

İnanırıq ki, növbəti illərdə bu alətdən daha geniş istifadə edəcəyik və bu halda şagirdlərin daşınmasına ehtiyac qalmayacaq.

Bununla belə azsaylı siniflərin bəzi fənlər üzrə yenə də daha böyük məktəblərə cəlb edilməsində fayda var. Bu, xüsusilə tam orta təhsil səviyyəsində özünü göstərə bilər. Çünki təhsil sistemində yalnız müəllim, şagird və ya tədrisin keyfiyyəti deyil, sosial faktorlar və şagirdlərarası ünsiyyət də mühüm rol oynayır. Hibrid modellərdən gələcəkdə daha geniş istifadə olunacaq.

**Məcburi köçkün məktəbləri rasionallaşdırılır**

Burada bir neçə məqsəd var. İşin görünən tərəfi ondan ibarətdir ki, hazırda 25 ümumtəhsil müəssisəsi və 13 məktəbəqədər təhsil müəssisəsi işğaldan azad edilmiş ərazilərdə fəaliyyətə başlayıb. Təxminən 4500 civarında şagird təhsil alır. Növbəti tədris ilində bunun sürətlə artacağını gözləyirik. Çünki bu illər ərzində daha çox infrastruktur layihələri ilə məşğul idik, yəqin ki, yaxın illərdə bu say daha da artacaq.

Ölkədə eyni adda, məsələn, iki Ağdam 1 nömrəli məktəbi ola bilməz. Məcburi köçkün məktəblərinin fəaliyyəti bu mənada onların öz yerlərinə qayıtmasından sonra dayandırılır, həmin məktəblərin heyəti isə rasional şəkildə yenidən təşkil olunur.

Üçüncü məsələ köç etmiş insanların arasından müəllimlərin seçilməsi, belə imkan olmadıqda isə qəbul prosesinin aparılması və ümumilikdə orada işin düzgün və rasional qurulmasıdır.

Yaxşı xəbər odur ki, işğaldan azad edilmiş ərazilərdə yüksək infrastrukturla təmin olunmuş məktəblər tikilir və çalışılır ki, tədris sıfırdan başladığı üçün proses fərqli və daha müasir formatda həyata keçirilsin. Müəllimlərimizin keyfiyyəti yaxşıdır, motivasiyası yüksəkdir. İnanıram ki, həmin ərazilərdə fəaliyyət göstərəcək məktəblər ölkənin ən yaxşı məktəbləri sırasında olacaq.

Yeni bacarıqlara ehtiyac yaranır, bundan əvvəl vacib hesab edilən bəzi bacarıqlar isə sürətlə əhəmiyyətini itirir. Bununla belə, fundamental bacarıqlar - oxu bacarıqları, riyazi bacarıqlar və yaxud elm sahəsində fundamental biliklər heç vaxt əhəmiyyətini itirməyəcək.

**Ali təhsildə məzmun islahatı ixtisas təsnifatının dəyişdirilməsindən daha vacibdir.**

Çünki marketinq baxımından ixtisaslara yeni adlar verə bilərik, amma həmin ixtisasların arxasında nə dayandığı sualı daha ciddi məsələdir. Yaxşı fikirlərlə həmin fikirlərin uğurlu icrası arasında böyük fərq var. Məsələn, süni intellekt sahəsində yaxşı mühəndislər hazırlamaq ideyası yaxşı fikirdir. Amma bunu tədris edə biləcək professor-müəllim heyətinin formalaşdırılması məsələsində ehtiyatlı olmaq lazımdır.

Təhsildə kəmiyyət problemi həll edilib.

Problem artıq daha çox keyfiyyət məsələsidir. Keyfiyyət isə əsasən tədris heyətindən və ali təhsildə tədris aparan şəxslərin sənayeyə, iqtisadiyyata və müxtəlif istehsal proseslərinə nə qədər yaxın olmasından, bu sahələrdən nə dərəcədə xəbərdar olmasından asılıdır.

Dərslik üçün narahat olan insanlar çapdan əvvəl öz irad və qeydlərini bildirsələr, bu daha faydalı olar. Dərslik yazıldıqdan sonra kimsə onu oxuyarkən bir hərf səhvini tapıb bunu Azərbaycan təhsilinin ən böyük problemi kimi təqdim edirsə, bunu o qədər də əhəmiyyətli hesab etmirəm. Dərsliklərdə həmişə hərf səhvləri olub.

Dərsliklərdə ciddi məzmun problemləri mövcuddur: "Biz fizika, kimya və biologiya dərsliklərinin növbəti nəslə uyğun olub-olmadığını müzakirə edə bilərik. Bu mənada hətta tənqidçi mövqedən də çıxış edə bilərəm. Bu mənim vəzifə funksiyam olmasa da, vətəndaş mövqeyindən baxdıqda belə bir qiymətləndirmə mümkündür.

Əgər dərslikdə bir səhv tapılırsa, onu çapda düzəltmək çətindir, amma elektron versiyada həmin gün dəyişmək mümkündür. Bu, böyük problem deyil. Əgər hansısa mövzu yoxdursa, bu artıq ciddi problemdir. Hər hansı mövzu artıqdırsa, biz bu qədər mövzu keçməliyikmi? Bəlkə fərqli mövzulara keçək? Bəlkə kimya və biologiya fənlərində yeni elmi nailiyyətləri dərsliklərə daxil edək? Mən nə mediada, nə də ictimai müzakirələrdə bu tip narazılıqları çox görməmişəm. Görsəydim, çox sevinərdim.

**Azərbaycan məktəbi yaxın beş ildə daha çox şəxsiyyət formalaşdıran məktəb istiqamətində dəyişməlidir.**

Milli kimlik məsələsi qarşıda duran ən mürəkkəb məsələlərdəndir. Şəxsiyyət dedikdə isə daha çox dəyərləri qabardardım. İstənilən təhsil sisteminin qarşısında iki vacib məqam dayanır. Xüsusilə bizim kimi coğrafiyada yerləşən və bizim kimi xüsusiyyətlərə malik xalqlar və dövlətlər baxımından bunlardan biri milliliyin, adət-ənənələrin və dəyərlərin, o cümlədən dilin qorunmasıdır. Azərbaycan dilinin digər dillərin inkişafı fonunda itib-batmaması, rəqabətə davam gətirməsi baxımından bu, bizim üçün açıq çağırışdır. Bu nöqteyi-nəzərdən, dəyərlər dedikdə, milli kimlik və milli dəyərlər kontekstində azərbaycançılıq ideologiyası əsasında gələcək nəsillərin milli dəyərlərini dövrün reallıqlarına uyğunlaşdırmış bir azərbaycanlı nəsil yetişdirən məktəb nəzərdə tutulmalıdır. Eyni zamanda, beynəlxalq rəqabəti və beynəlxalq konteksti də unutmamalıyıq.

**Yalnız yüksək bal toplayan müəllimlərin deyil, sertifikatlaşdırmadan keçmiş bütün müəllimlərin əməkhaqqısı artır. Sadəcə, bu artım diferensial şəkildə həyata keçirilir. Bir qisminin maaşı 10 faiz, digər qisminin isə 35 faiz artırılır.**

Minlərlə müəllimin maaşı 35 faiz, başqa on minlərlə müəllimin maaşı isə 10 faiz artıb. Bu prosesdə biz həmişə şəffaf olmağa çalışmışıq. Müəllimlərə verilən sualları ictimaiyyətə təqdim etmişik. Dolayı yolla cəmiyyətə belə bir sual vermişik: siz necə düşünürsünüz, əgər sualların otuzuna müəllim peşəsi adını daşıyan şəxs cavab verə bilmirsə, o, bizim övladlarımıza dərs deməlidir, yoxsa yox? Məncə, sual çox sadədir. Bunun "bəli" və ya "xeyr" cavabı var.

Burada ən ağrılı məqam psixoloji gərginlik və bir neçə min müəllimin işdən azad edilməsidir. Bu, özlüyündə bizim üçün də xoş olmayan prosesdir. Amma burada iki seçim var. Hansının pis, hansının daha pis olduğunu ölçüb-biçərək, daha az pis olanı seçirik. Öz fənni üzrə suallara cavab verə bilməyən müəllimlərin övladlarımıza dərs deməsi pis seçimdir. Digər tərəfdən, bir neçə min müəllimin işdən azad olunması ilə bağlı qərar veririk.

Bunun müqabilində on minlərlə, yüz minlərlə şagirdin gələcəkdə daha yaxşı təhsil alması ilə bağlı qərar qəbul edilib.

**MİQ-lə işə qəbul olanların bilik səviyyəsi əvvəlkilərlə müqayisədə yüksəkdir.**

Son on il ərzində müəllimlərin işə qəbulu mərkəzləşdirilib və MİQ yolu ilə işə qəbul olunan müəllimlərin 99,8 faizi sertifikatlaşdırma prosesindən uğurla keçib. Bu müəllimlərin təxminən 80 faizi yüksək bal toplayıb.

Son on ildə mərkəzləşdirilmiş qaydada işə qəbul olunan müəllimlərin fənn üzrə bilik səviyyəsi əvvəlki dövrlərdə işə qəbul olunanlarla müqayisədə 2,5 dəfə yüksəkdir.

Biz 1990, 2000, 2010 və 2020-ci illərdən sonra ali təhsil müəssisələrinin müəllimlik ixtisaslarına qəbul olan tələbələrin ballarında da əsaslı dəyişiklik görə bilərik. Məsələn, 2013-2014-cü tədris ilində pedaqoji universitetin ibtidai sinif müəllimliyi ixtisasına 500 baldan yuxarı nəticə ilə qəbul olunan tələbələrin sayı çox az idi. Hazırda isə yüzlərlə belə tələbəmiz var.

**Hər il müəllimlərin orta əməkhaqqısı statistik olaraq yüksəlib.**

Sertifikatlaşdırma prosesi Azərbaycan məktəbinə rəqabət gətirməklə yanaşı, tədrisin keyfiyyətini də yaxşılaşdırır. Eyni zamanda, müəllimlərin əməkhaqlarında diferensiallaşma yaradaraq onların gəlirlərinin artmasına şərait yaradır. İşə qəbul olunan müəllimlərin keyfiyyəti bizdə sual doğurmur. Müəllimlik bu gün kifayət qədər rəqabətli peşədir.

**Bakıdakı universitetlər köçürülməyəcək, tələbə sayı azaldılacaq**

**Sinifdə öz şagirdinə dərs deyən müəllimin həmin şagirdə repetitorluq etməsi ciddi problemdir və belə olmamalıdır**

**Azərbaycan təhsilində ən çətin işlə məşğul olanlar müəllimlərdir**

**Məktəblərdə hibrid modellərdən daha geniş istifadə olunacaq**

**Dərsliklərdə ciddi məzmun problemləri mövcuddur**

**Məcburi köçkün məktəbləri rasionallaşdırılır**

**Ali təhsildə məzmun islahatı ixtisas təsnifatının dəyişdirilməsindən daha vacibdir**

**Azərbaycan məktəbi yaxın beş ildə daha çox şəxsiyyət formalaşdıran məktəb istiqamətində dəyişməlidir**

**MİQ-lə işə qəbul olanların bilik səviyyəsi əvvəlkilərlə müqayisədə yüksəkdir**

**Ali təhsil müəssisələrinin müəllimlik ixtisaslarına qəbul olan tələbələrin ballarında da əsaslı dəyişiklik görə bilərik**

**Hər il müəllimlərin orta əməkhaqqısı statistik olaraq yüksəlib.**

# MƏKTƏBLİLƏRİN MÖHTƏŞƏM İDMAN BAYRAMI








## Məktəblilərin Respublika İdman Olimpiadasının açılış mərasimi keçirilib

İyunun 20-də Bakı Kristal Zalında Məktəblilərin Respublika İdman Olimpiadasının rəsmi açılış mərasimi keçirilib.

Açılış mərasimində dövlət rəsmiləri, media qurumlarının rəhbərləri, tanınmış idmançılar, ictimai nüfuzlu şəxslər və digər qonaqlar iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Mərasimdə bildirilib ki, olimpiadada ölkənin 59 şəhər və rayonunu təmsil edən 2000-dən çox məktəbli iştirak edir. Yarışlarda iştirak edən məktəblilər Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin tabeliyində fəaliyyət göstərən, həmçinin Naxçıvan Muxtar Respublikasında yerləşən uşaq-gənclər idman məktəblərinin yetirmələridir.

İştirakçılar 21—26 iyun tarixlərində ağırlıqqaldırma, atletika, badminton, basketbol, boks, cüdo, yunan-Roma güləşi, sərbəst güləş, bədii gimnastika, stolüstü tennis, taekvondo və velosiped idmanı növləri üzrə mübarizə aparacaqlar.

Rəsmi açılış mərasiminin bədii hissəsi çərçivəsində konsert proqramı təqdim olunub, olimpiadanın himni səsləndirilib.

Qeyd edək ki, Məktəblilərin Respublika İdman Olimpiadası Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və müvafiq idman federasiyalarının dəstəyi ilə ölkədə ilk dəfə keçirilir. Bu layihə məktəblilər arasında respublika səviyyəsində təşkil olunan ilk genişmiqyaslı idman tədbiridir.

Olimpiadanın əsas məqsədi məktəblilər arasında idmanın inkişafına töhfə vermək, sağlam həyat tərzini təşviq etmək, fiziki hazırlıq səviyyəsini yüksəltmək, istedadlı gəncləri üzə çıxarmaq və onların gələcək inkişaf perspektivlərini dəstəkləməkdir.

## Nazir basketbol yarışlarını izləyib

**İyunun 24-də Məktəblilərin Respublika İdman Olimpiadası çərçivəsində basketbol idman növü üzrə final və üçüncü yer uğrunda oyunlar keçirilib. Bakı İdman Sarayında təşkil olunan yarışları Azərbaycan Basketbol Federasiyasının prezidenti, elm və təhsil naziri Emin Əmrullayev də izləyib.**





Oğlanlar arasında keçirilən final qarşılaşmasında RİOEUGİM-2 komandası Gəncə UGİŞM komandasını 36:11 hesabı ilə məğlub edərək turnirin qalibi olub. Qızların final oyununda isə İOEUGİM-8 komandası Gəncə UGİŞM-1 komandasına 42:14 hesabı ilə qalib gələrək birinci yerə layiq görülüb.

Oğlanların üçüncü yer uğrunda oyununda İOEUGİM-8 komandası UGİM-10 komandasını 49:13 hesabı ilə məğlub edib. Qızlar arasında keçirilən üçüncü yer uğrunda qarşılaşmada isə Cəlilabad UGİM komandası Tovuz UGİŞM komandasına 23:9 hesabı ilə qalib gəlib.

Yarışların sonunda qalib və mükafatçılara medal, diplom və kuboklar təqdim olunub.

Mükafatlar elm və təhsil naziri Emin Əmrullayev, nazir müavini Firudin Qurbanov, Azərbaycan Basketbol Federasiyasının icraçı vitse-prezidenti Fərrux Mahmudov, Elm və Təhsil Nazirliyinin Uşaq və gənclərin inkişafı şöbəsinin müdiri Elnur Əliyev tərəfindən təqdim edilib.



Qeyd edək ki, Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən Məktəblilərin Respublika İdman Olimpiadası ölkəmizdə ilk dəfə təşkil olunur. Olimpiadanın əsas məqsədi məktəblilər arasında idmana marağın artırılması, sağlam həyat tərzinin təşviqi və gənc idmançıların inkişafına dəstək göstərilməsidir. Yarışlar iyunun 26-dək davam edəcək.

## "Olimpiya çempionu olmaq hədəfimdir"



**Məktəblilərin Respublika İdman Olimpiadasında bədii gimnastika üzrə yarışlar yekunlaşıb.**

Qaliblərin mükafatlandırılmasında elm və təhsil nazirinin müavini Firudin Qurbanov iştirak edib.

Nazir müavini qızıl medalı Bakı şəhəri 258 nömrəli məktəbin 7-ci sinif şagirdi Banu Quluzadəyə təqdim edib. O, Respublika İdman Kompleksinin yetirməsidir. 13 yaşlı qəhrəmanımız artıq 4 ildir gimnastika ilə məşğul olur: "Olimpiadada 4 alətlə çıxış etdim. Çıxışım özümü qane etdi".

Aydan Nəbiyevanın yetirməsi gimnastikaya özü arzuladığı üçün gəlib: "Olimpiya çempionu olmaq hədəfimdir.

# ÇEMPİON MƏKTƏBLİLƏR

## "Çox yarışda uğur qazanmışam"
### Tennisçi Səidə Qulizadə



Məktəblilərin Respublika İdman Olimpiadasında aşağı yaş qrupunda yarışan tennisçilər arasında böyük gözləntilər olan idmançılardan biri də Bakı məktəblisi Səidə Qulizadədir. 84 nömrəli tam orta məktəbin şagirdi 4 idən çoxdur ki, stolüstü tennislə məşğul olur. Ölkə səviyyəsində və beynəlxalq yarışlara qatılaraq uğur qazanıb:

"Bakı çempionatında 3 növ üzrə birincilik əldə edərək mütləq birinci oldum. Özbəkistanda yarışa qatılaraq III olmuşam. Çox yarışda uğur qazanmışam, hamısı yadımda deyil".

Məktəbdə də yaxşı oxumağa çalışan idmançı şagird tennis oynamağı daha çox sevir: "Məktəbdə idman dərsini sevirəm, bir də "Rəqəmsal bacarıqlar" dərsini. Kompüterdə işləyirik".

Tennis oynamağa "Şüa" İdman Klubuna gəlir: "Tennis oynamağı sevirəm. Bir də oxatma idman növü ilə maraqlanıram. O qədər həvəs göstərirdim ki, atam mənə yay düzəltdi, amma oxu taxtadan idi".

Tennis müəllimi olacağını deyən Səidə bunun üçün ona nə lazım olduğunu da bilir: "İdman institutunu qurtarmalıyam".

Səidə özünə güvənir, qalib olacağını düşünür. Ancaq gözünü qorxudan, bir az da pərəstiş etdiyi bir rəqibi var: "Onur Qulizadə həmişə yarışlarda I yer olur, ya da II yerə çıxır".

**Ruhiyyə DAŞSALAHLI**

## Yeniyetmə gimnast: "Şuşanı qaliblər sırasında təmsil etmək qazandığım uğurun ən dəyərli hissəsidir"



Məktəblilərin Respublika İdman Olimpiadası çərçivəsində gimnastika yarışlarının birinci günündə qaliblər arasında Şuşa şəhər Uşaq-Gənclər İdman Məktəbinin təmsilçisi Kamilla Bağırova da oldu. O, olimpiadada III yerə layiq görülüb.

Kamilla "Azərbaycan müəllimi" ilə sevincli anlarını paylaşıb:

"Bu gün medalçılar sırasında yer almaq mənim üçün böyük qürurdur. Sevincliyəm, həm də ona görə ki, doğma Şuşamızın Uşaq-Gənclər İdman Məktəbini təmsil edirəm. Medal qazanmağım həyatımın ən dəyərli unudulmaz anlarından biridir. Yarış zamanı yalnız özüm üçün deyil, təmsil etdiyim Şuşa üçün də çıxış etdiyimi hiss edirdim. Hər dəfə yarış meydançasına çıxanda düşünürdüm ki, mən yalnız bir idmançı deyil, həm də gözəl Şuşamızın təmsilçisiyəm və bu məsuliyyət mənə əlavə güc verirdi.

Bu uğurun arxasında böyük zəhmət dayanır. 3 yaşımdan gimnastika ilə məşğul oluram. Məşqçim Züleyxa İsmayılova hər zaman mənə inanıb, məqsədimə çatmaq üçün ruhlandırıb. Bu medalda, eləcə də digər yarış və beynəlxalq turnirlərdə əldə etdiyim nailiyyətlərdə onun əməyi çox böyükdür.

Şuşanın adını belə mötəbər yarışda qaliblər sırasında eşitmək xüsusi hissdir. Bu, mənim üçün sadəcə idman nailiyyəti deyil, həm də böyük qürur və məsuliyyətdir.

Məktəblilərin Respublika İdman Olimpiadası mənə göstərdi ki, əzmkarlıq və zəhmət mütləq öz bəhrəsini verir. Yarışın yüksək səviyyədə təşkili, iştirakçılara göstərilən diqqət və qayğı biz gimnastlara daha da motivasiya verdi. Bu gün əldə etdiyim medal mənim üçün növbəti yeni başlanğıcdır. Qarşıda daha böyük hədəflərim var və ölkəmi gələcək yarışlarda da ən yüksək səviyyədə təmsil etmək üçün daha çox çalışacağam.

Şuşanı qaliblər sırasında təmsil etmək qazandığım uğurun ən dəyərli hissəsidir".

**Samirə KƏRİMOVA**

## "Həmişə birinci yer tutacağımı fikirləşirdim"
### Olimpiada qalibi Elçin Muradov



Məktəblilərin Respublika İdman Olimpiadasında ağırlıqqaldırma növü üzrə yarışlarda Qazax məktəblisi Elçin Muradov qalib olub. O, 110 kiloqram (49 kq + 61 kq) nəticə göstərərək qızıl medala layiq görülüb.

"Azərbaycan müəllimi" Elçin Muradovla həmsöhbət olub.

Qazax rayonu Şamoy Çobanov adına Ağköynək kənd tam orta ümumtəhsil məktəbinin şagirdi Elçin Muradov artıq üç il yarımdır ki, ağırlıqqaldırma ilə məşğul olur. O, məşqlərini Qazax Olimpiya İdman Kompleksində edib.

"13 yaşım var. Bu idman növünü çox sevirəm", — deyə o, özünü təqdim edir.

Elçinin sözlərinə görə, ağırlıqqaldırmaya marağı müəlliminin təşviqi ilə yaranıb: "Məşqçim Rafael İbrahimov məni bu idman növünə cəlb etdi".

Respublika Olimpiadasında qızıl medal əldə etdiyi anı belə xatırlayır: "Birinci yerə çıxanda fikirləşdim ki, gələcəkdə daha yaxşı yerlərə çıxacağam".

Qələbəyə gedən yolda onu ruhlandıran əsas fikri yadına salır: "Həmişə birinci yer tutacağım barədə fikirləşirdim".

Elçin artıq gələcək hədəflərini də müəyyənləşdirib: "Hədəfim Avropa çempionatında birinci yer tutmaqdır".

**Firuzə CÜMŞÜD,**
**Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi**

# “MƏNİM MƏKTƏBİM”



# Elnur Məmmədli:
# “Böyük uğurların təməli məktəb yaşlarından qoyulur”

**Qələbələr təsadüfən qazanılmır. Onların arxasında illərlə davam edən zəhmət, inam, ailə dəstəyi və doğru istiqamətləndirmə dayanır. Azərbaycan cüdosunun ən parlaq simalarından biri, Olimpiya çempionu Elnur Məmmədlinin həyat yolu bunun bariz nümunəsidir. Məktəb yaşlarından başlayan bu uğur hekayəsi onu Olimpiya zirvəsinə yüksəldib. “Azərbaycan müəllimi” qəzetinin “Mənim məktəbim” rubrikasının qonağı olan Azərbaycanı beynəlxalq arenada dəfələrlə layiqincə təmsil etmiş, Olimpiya çempionu, ikiqat Avropa çempionu, “Əməkdar bədən tərbiyəsi və idman xadimi”, “Şöhrət” ordenli Elnur Məmmədli uşaqlıq arzularından, həyatında önəmli yer tutan müəllim və məşqçilərinin rolundan, idmanın gənclərin həyatındakı əhəmiyyətindən söz açıb.**

## “İlk müəllimim demişdi ki, Olimpiya çempionu olacaqsan”






### “Uğurlarımın təməlində anamın dəstəyi, müəllimlərimin və məşqçilərimin zəhməti, öz əzmim, çalışqanlığım dayanır”

*— Sizinlə daha yaxından tanış olaq.*

— Mən 29 iyun 1988-ci ildə Bakıda anadan olmuşam. Ailədə iki bacım və bir qardaşımla birlikdə böyümüşəm. Uşaqlıqda çox cılız idim, çəkim cəmi 27 kiloqram idi. İdmana başlayanda səkkiz yaşım var idi. Anam mənim idmana olan həvəsimi görərək cüdoya yönləndirdi. Bu gün əldə etdiyim uğurların təməlində anamın dəstəyi, müəllimlərimin və məşqçilərimin zəhməti, eyni zamanda öz əzmim, qətiyyətim və çalışqanlığım dayanır.

Karyeram ərzində Azərbaycanı beynəlxalq arenada uğurla təmsil etmişəm. 2008-ci ildə Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarının qızıl medalını qazanmışam. Həmin olimpiadada bütün görüşlərimi vaxtından əvvəl başa vuraraq qalib gəlmiş və Olimpiya Oyunları tarixində buna nail olan ilk cüdoçu olmuşam. Eyni zamanda Azərbaycanın Olimpiya tarixində qızıl medal qazanan ikinci cüdoçuyam.

Bundan başqa, 2007-ci ildə Rio-de-Janeyroda keçirilən Dünya çempionatında gümüş medal, 2006 və 2011-ci illərdə Avropa çempionatında qızıl medallar qazanmışam.

*— Orta və ali təhsilinizi harada almısınız?*

— Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbini və 2 ali təhsil müəssisəsini - İdman Akademiyasını, DİN-in Polis Akademiyasını bitirmişəm.

*— Dünya və Avropa səviyyəli yarışlara gedən yolunuzun təməli məktəb illərində necə qoyuldu?*

Bu yolun əsası təbii ki, məktəb illərindən qoyulub. Həm dərslərimə məsuliyyətlə yanaşırdım, həm də idmanla ciddi məşğul olurdum. Məktəbdə qazandığım intizam, müəllimlərimin dəstəyi və məşqçilərimin zəhməti sonrakı uğurlarımın əsasını təşkil etdi. O dövrdə müəllimlərimin və məşqçilərimin mənə olan inamı xüsusi rol oynayırdı. Onlar mənim potensialımı görür və daim motivasiya verirdilər. Mən hər zaman aktiv uşaq olmuşam. Məşqlərə böyük həvəslə gedirdim, öz üzərimdə işləməyi sevirdim. Müəllimlərim və məşqçilərim də məndəki istəyi görür, mənimlə daha ciddi məşğul olurdular. Onların inamı və dəstəyi məni daha çox çalışmağa ruhlandırırdı.

*— Cüdo ilə neçə yaşınızdan məşğul olmağa başlamısınız və niyə məhz bu idman növünü seçmisiniz?*

— Bu idman növünü çox sevirdim və zaman keçdikcə cüdo həyatımın ayrılmaz hissəsinə çevrildi. Böyük qardaşım Rövşən Məmmədli də cüdo ilə məşğul olurdu. Uşaq vaxtı qardaşımın məşqlərini, yarışlarını izləyirdim və bu mühit mənə çox maraqlı gəlirdi.Qeyd etdiyim kimi, ən böyük dəstəkçim anam olub.

İlk vaxtlar cüdo mənim üçün sadəcə maraqlı bir məşğuliyyət idi. Amma zaman keçdikcə bu idman növünə daha böyük sevgi ilə bağlandım. Cüdo təkcə fiziki güc deyil, həm də xarakter, iradə, intizam və hörmət deməkdir. Bu idman növü mənə həyat boyu lazım olacaq çox vacib keyfiyyətlər qazandırdı.

Bu gün geriyə baxanda anlayıram ki, cüdo mənim üçün sadəcə bir idman növü olmayıb. Cüdo mənə mübarizə aparmağı, çətinliklər qarşısında sınmamağı, məqsədimə doğru inamla irəliləməyi öyrədib. Məhz buna görə də illər keçdikcə cüdo həyatımın ayrılmaz hissəsinə çevrildi və məni Olimpiya çempionluğuna aparan yolun əsasını təşkil etdi.

*— Uğur yolunuzun başlanğıcına qayıdaq. İlk idman yarışınız neçə yaşınıza təsadüf edirdi və həmin gün gələcəkdə böyük uğurlar qazanacağınızı təsəvvür edə bilirdinizmi?*

— Yarışlarda səkkiz yaşımdan iştirak etməyə başlamışam. İlk müəllimim Yaşar Allahverdiyev olub. Onun mənə dediyi ilk sözlərdən biri “Sən Olimpiya çempionu olacaqsan”, - olmuşdu. Hər zaman məni böyük hədəflərə kökləyirdi. Bilirsiniz, idmançının psixoloji cəhətdən yarışa hazır olması qələbənin yarısı deməkdir.

Uşaqlıqdan Olimpiya çempionu olmağı arzulayırdım. Bunun üçün çox çalışırdım və qarşıma çıxan hər fürsəti dəyərləndirirdim və ən əsası uğur qazanacağıma inanırdım.

İdmanda insanın qarşısında həmişə çətinliklər olur, amma əgər məqsədin böyükdürsə və ətrafında sənə inanan insanlar varsa, uğur qazanmaq mümkündür.

*— Məktəb, müəllim və məşqçi əməkdaşlığının gələcək çempionların formalaşmasında rolunu necə qiymətləndirirsiniz?*

— Müəllimlərim ilk gündən idmana olan marağımı hiss edirdilər, potensialımı görürdülər və həmişə mənimlə fəxr edirdilər. Həm əlaçı idim, həm də idmanda uğurlar qazanırdım. Onların mənə göstərdikləri dəstəyi heç vaxt unutmaram.

Mənim fikrimcə, müəllim, məşqçi və valideyn əməkdaşlığı gələcək çempionların formalaşmasında çox mühüm rol oynayır. Uşağın potensialını vaxtında görmək və onu düzgün istiqamətləndirmək lazımdır.

### “İlk böyük uğurum Avropa çempionatında qazandığım qızıl medal oldu”

*— İlk ciddi uğurunuz hansı yarışda olub? Bəs karyeranızda dönüş nöqtəsi hesab etdiyiniz yarış hansıdır?*

— İlk böyük uğurum 2004-cü ildə yeniyetmələr arasında Avropa çempionatında qazandığım qızıl medal olub. Bu, mənim ilk Avropa çempionatım idi və sevincimin hədd-hüdudu yox idi. Həmin an yaşadığım hissləri unutmaq mümkün deyil. O vaxt ilk dəfə hiss etdim ki, böyük hədəflərə çatmaq mümkündür. Həmin qələbə mənə özünəinam verdi və daha böyük uğurlar üçün motivasiya yaratdı.

Karyeramın dönüş nöqtələrindən biri isə 2006-cı ildə böyüklər arasında Avropa çempionatı oldu. Orada çox güclü rəqiblərlə qarşılaşdım. Xüsusilə məndən 12 yaş böyük olan Daniel Fernandeslə görüşü xatırlayıram. Həmin görüşdə qələbə qazanmağım mənə böyük inam verdi.

### “Həyatımın ən unudulmaz günü – Azərbaycan bayrağı yüksələndə...”

*— Pekin Olimpiadasında qazandığınız qızıl medal həyatınızda nəyi dəyişdi?*

— Pekində qızıl medal qazandığım gün həyatımın ən unudulmaz günü idi, o an Azərbaycan bayrağı yüksələndə və Dövlət Himnimiz səslənəndə keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil. Sən anlayırsan ki, milyonlarla insanın sevincinə səbəb olmusan və ölkəni layiqincə təmsil etmisən.

Mənim üçün çox qürurverici məqamlardan biri də mükafatlandırma mərasimində qızıl medalın Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təqdim olunması idi. Bu, hər bir idmançı üçün böyük fəxrdir.

Həmin vaxt Birinci vitse-prezident Mehriban xanım Əliyevanın anama zəng edərək təbrik etməsi ailəmiz üçün çox unudulmaz hadisə oldu. Bu diqqət və qayğı insanı daha da ruhlandırır. Biz idmançılar həmişə dövlətimizin dəstəyini hiss etmişik və bu dəstək uğurlarımızın davamlı olmasında mühüm rol oynayıb.

*— Bu gün uşaq və yeniyetmələrin cüdoya marağını necə qiymətləndirirsiniz?*

— Çox yüksək qiymətləndirirəm. Bu gün cüdo Azərbaycanda ən populyar idman növlərindən biridir. Cüdo ildən-ilə inkişaf edir və beynəlxalq arenalarda böyük uğurlar qazanılır. Azərbaycan cüdoçularının qazandığı qızıl medallar uşaqların bu idman növünə marağını daha da artırıb. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci-vitse prezident Mehriban Əliyeva tərəfindən idmana böyük diqqət və qayğı göstərilir. Bu qayğının nəticəsini biz beynəlxalq yarışlarda qazanılan uğurlarda görürük. Ölkəmizdə idman infrastrukturu yaradılıb, müasir idman kompleksləri tikilib, gənclərin idmana cəlb olunması üçün geniş imkanlar yaradılıb. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

### “Məktəblilərin Respublika İdman Olimpiadası çox əhəmiyyətli layihədir”

*— Ölkəmizdə ilk dəfə olaraq Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və idman federasiyalarının dəstəyi ilə Məktəblilərin Respublika İdman Olimpiadası keçirilir. Siz bu təşəbbüsün Azərbaycan idmanının gələcəyi baxımından əhəmiyyətini necə qiymətləndirirsiniz?*

— Hesab edirəm ki, bu, çox vacib və strateji əhəmiyyət daşıyan layihədir və onun keçirilməsi təqdirəlayiqdir. İlk növbədə, ona görə ki, bu olimpiada məktəblilər arasında sağlam həyat tərzinin təşviqinə, uşaqların idmana marağının artırılmasına və yeni istedadların üzə çıxarılmasına xidmət edir. Bu gün ölkəmizin 59 rayon və şəhərindən 2000-dən çox məktəblinin bir araya gəlməsi artıq layihənin miqyasını və əhəmiyyətini göstərir.

Xüsusilə sevindirici haldır ki, olimpiadaya müxtəlif idman növləri daxil edilib. Bu, hər bir uşağın öz marağına və bacarığına uyğun sahədə özünü sınamasına şərait yaradır. İdman yalnız medal qazanmaq deyil, həm də intizam, məsuliyyət, vətənpərvərlik və sağlam həyat tərzidir. Uşaqları zərərli vərdişlərdən uzaqlaşdırır, sağlam həyat tərzinə istiqamətləndirir. Ona görə də hesab edirəm ki, Məktəblilərin Respublika İdman Olimpiadası çox əhəmiyyətli layihədir.

İnanıram ki, olimpiada gələcəkdə ənənəvi xarakter alacaq və Azərbaycan idmanına yeni çempionlar qazandıracaq.

*— Bu gün məktəb yarışlarında iştirak edən bir şagirdin gələcəkdə beynəlxalq arenaya yüksəlməsi üçün hansı xüsusiyyətlərə sahib olması vacibdir?*

— Ən vacib keyfiyyətlər zəhmətkeşlik, intizam, əzmkarlıq və özünəinamdır. İdmanda uğur təsadüfən gəlmir. Hər gün çalışmaq, məqsədə doğru inamla irəliləmək lazımdır. Çempion olmaq istəyən idmançı, ilk növbədə, səbirli olmalıdır. Çünki uğura gedən yol heç də asan olmur. Bu yolda həm qələbələr, həm də məğlubiyyətlər olur. Məğlubiyyətlərdən düzgün nəticə çıxarmağı bacaran idmançılar gələcəkdə daha böyük uğurlar qazanırlar.

### “Həm təhsildə, həm də idmanda daim inkişaf etməyə çalışın”

*— Sonda, Məktəblilərin Respublika İdman Olimpiadasında iştirak edən bütün uşaqlara xüsusilə cüdonu seçənlərə nə demək istərdiniz?*

— İlk növbədə, Məktəblilərin Respublika İdman Olimpiadasında iştirak edən bütün uşaqlara uğurlar arzulayıram. Bu yarışın onlar üçün gözəl təcrübə və unudulmaz xatirə olacağına inanıram.

Xüsusilə, cüdonu seçən gənclərə demək istəyirəm ki, cüdo təkcə idman növü deyil, həm də həyat məktəbidir. Bu idman növü insana hörmət etməyi, səbirli olmağı, intizamı, mübarizə aparmağı və heç vaxt təslim olmamağı öyrədir. Hər məşq, hər yarış insanı həm fiziki, həm də mənəvi cəhətdən daha da gücləndirir.

İdman insanı yalnız güclü idmançı yox, həm də yaxşı vətəndaş kimi formalaşdırır. Məktəblilərə tövsiyəm odur ki, həm təhsildə, həm də idmanda daim inkişaf etməyə çalışsınlar.

İnanın, çalışın, arzularınızın arxasınca gedin və heç vaxt təslim olmayın. Qələbəyə gedən yol məhz bu gün atdığınız ilk addımlardan başlayır…

**Samirə KƏRİMOVA**

# SERTİFİKATLAŞDIRMA: DAVAMLI İNKİŞAF

## "Ən yaxşı öyrənmək öyrətməkdən keçir"

### Vətən müharibəsi iştirakçısı 58 bal topladı



**Dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsi davam edir. İyunun 24-də Sumqayıt şəhərində keçirilən sertifikasiya imtahanında yüksək nəticələri ilə seçilən təhsilverənlərlə tanış olduq.**

Sertifikasiya imtahanında 58 bal toplayan Elmir Şükürov Xırdalan şəhəri 7 nömrəli tam orta məktəbdə 4 ildir ki, tarix müəllimi işləyir. Elmir müəllim müharibə veteranıdır: "Murovdağ istiqamətində döyüşlərdə iştirak etmişəm. Həm "Kəlbəcərin azad olunmasına görə", həm də "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşam".

E. Şükürov qeyd edir ki, imtahana xüsusi olaraq hazırlaşmayıb: "Suallar fənnini normal bilən hər bir müəllim tərəfindən yazıla biləcək səviyyədə idi. Sertifikasiyanın əhəmiyyəti ondadır ki, müəllimlərin biliklərinin səviyyəsini müəyyən edir, gələcəkdə öz üzərlərində işləmələrinə şərait yaradır. İmtahandan uğurla keçmiş hər bir müəllimə fəaliyyətində uğurlar arzulayıram və hər bir müəllimə öz üzərində daim işləməyi, mütaliə etməyi və ən əsası, şagirdləri öyrətməyə çalışmağı tövsiyə edirəm. Çünki ən yaxşı öyrənmək öyrətməkdən keçir".

**Lamiyə ƏLİMƏRDANOVA**

## Ana və qızı eyni fəndən imtahan verdi

### Hər ikisi yüksək bal topladı




Dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsi davam edir. Mil-Muğan regionu üzrə keçirilən növbəti imtahan günü maraqlı bir uğur hekayəsi ilə yadda qalıb. Belə ki, ana və qız eyni fənn — tarix üzrə imtahanda iştirak edərək yüksək nəticə əldə ediblər.

"Azərbaycan müəllimi" İmişli rayonunun Çaxırlı kənd tam orta məktəbinin tarix müəllimi Xuraman Kazımova və Əliyetməzli kənd tam orta məktəbinin tarix müəllimi Zümrüd Kazımlı ilə həmsöhbət olub.

İmtahanda könüllü iştirak edən Xuraman Kazımova 54 bal toplayıb. Onun qızı Zümrüd Kazımlı isə 53 bal nəticə göstərərək uğurlu müəllimlər sırasında yer alıb.

Ana və qız bildiriblər ki, sertifikasiya imtahanına birgə hazırlaşıblar.

"İmtahana birgə hazırlaşdıq. Dərsliklərlə təkrar etdik. Bundan da yüksək nəticə gözləyirdik", — deyə onlar qeyd ediblər.

Qeyd edək ki, Xuraman Kazımovanın 60 yaşı tamam olduğu üçün o, sertifikasiya imtahanında könüllü əsaslarla iştirak edib. Ana və qızın eyni fəndən imtahan verərək yüksək nəticə göstərməsi müəllimlər arasında maraqla qarşılanıb və sertifikasiya prosesinin yaddaqalan məqamlarından biri olub.

**Tural NƏSİROV,**
**Şirvan-Salyan və Mil-Muğan üzrə regional təmsilçi**

# Süni intellekt dövründə OYUNLAŞDIRMA

## Müəllimlərin peşəkar inkişafında oyunlaşdırmaya yeni baxış

**Süni intellekt son illərdə müəllimlərin peşəkar inkişafı sahəsində ən çox müzakirə olunan mövzulardan birinə çevrilib. Məktəblər, universitetlər və təhsil sistemləri müəllimlərə süni intellektdən dərs planlaşdırması, qiymətləndirmə, təlim dizaynı və sinif praktikası üçün istifadə etməyi öyrətməyə çalışırlar. Bu istiqamətdə müxtəlif seminarlar, təlimlər və praktik məşğələlər təşkil olunur. Bu vəziyyət müəllimlərin peşəkar inkişafını yeni tələblərlə üz-üzə qoyur. Məhz bu məqamda oyunlaşdırma məsələsi aktuallaşır. Oyunlaşdırma təhsildə iştirak, motivasiya və davamlılığı artırmaq üçün geniş istifadə olunan yanaşmadır. O, öyrənmə prosesini daha maraqlı, davamlı və izlənilməsi daha asan etmək üçün oyunlara xas bəzi elementlərin təlim mühitinə uyğunlaşdırılmasıdır.**



Maraqlıdır ki, oyunlaşdırma şagird və tələbə öyrənməsində geniş yayılsa da, müəllimlərin peşəkar inkişafında hələ də nisbətən məhdud tətbiq olunur. Son tədqiqatlar göstərir ki, müəllim hazırlığında oyunlaşdırma ilə bağlı araşdırmalar hələ də azdır və bu sahədə yanaşmalar çox vaxt xal, nişan, səviyyə və liderlər cədvəli kimi ənənəvi oyun elementləri ilə məhdudlaşır. Bu vəziyyət mühüm bir sual doğurur: Oyunlaşdırma müəllimlərin peşəkar inkişafında necə qurulmalıdır ki, sadəcə iştirak yaratmasın, həm də peşəkar öyrənməni dəstəkləsin?

### Ənənəvi oyunlaşdırma müəllim inkişafı üçün niyə kifayət etmir?

Qeyd etmək lazımdır ki, müəllimlər peşəkar inkişaf fəaliyyətlərində şagirdlərin formal təlimdə iştirak etdiyi səbəblərlə iştirak etmirlər. Onların məqsədi sadəcə yeni məlumat əldə etmək deyil. Peşəkar inkişaf müəllimdən tədris praktikasını yaxşılaşdırmağı, sinifdə qarşılaşdığı problemləri həll etməyi, yeni ideyaları qiymətləndirməyi və öz pedaqoji qərarlarını daha əsaslandırılmış şəkildə verməyi tələb edir.

Bu baxımdan mükafat yönümlü oyunlaşdırma müəllim peşəkar inkişafı üçün məhdud ola bilər. Bəzi araşdırmalar oyunlaşdırmanın iştirak və marağı artırdığını göstərsə də, digər tədqiqatlar zəif qurulmuş mükafat sistemlərinin səthi iştiraka səbəb ola biləcəyini vurğulayır. Belə hallarda iştirakçılar daha çox xal toplamağa, nişan qazanmağa və ya reytinqdə irəliləməyə yönəlir. Əsas öyrənmə məqsədləri isə arxa plana keçə bilər. Müəllim peşəkar inkişafında bu risk daha böyükdür. Çünki burada məqsəd qısamüddətli maraq yaratmaq deyil, sinif praktikasında düşünülmüş və davamlı dəyişiklik formalaşdırmaqdır.

### Müəllim öyrənməsi fərqli motivasiya məntiqi tələb edir

Müəllimlərin peşəkar inkişafı ilə bağlı ədəbiyyat göstərir ki, effektiv peşəkar inkişaf adətən davamlı iştirak, fəal öyrənmə, əməkdaşlıq, məzmun yönümlülük və sinif praktikası ilə əlaqə kimi xüsusiyyətlərlə xarakterizə olunur. Bu da onu deməyə əsas verir ki, müəllimlər real peşəkar problemlər üzərində işləyərək öyrənirlər. Onların motivasiyası tədrisi yaxşılaşdırmaq, peşəkar bacarıqlarını inkişaf etdirmək, həmkarları tərəfindən tanınmaq və tədris prosesinə töhfə vermək istəyi ilə bağlıdır. Buna görə də müəllimlər üçün motivasiya yalnız mükafatla deyil, real dərs praktikası, peşəkar inkişaf və həmkarlar tərəfindən tanınma ilə əlaqələndirilməlidir. Beləliklə, peşəkar inkişaf proqramlarında tətbiq edilən oyunlaşdırmada əsas məqsəd müəllimi yarışdırmaq deyil, onun peşəkar inkişafını daha aydın izlənən, rəyə əsaslanan və mərhələli prosesə çevirməkdir.

### Peşəkar oyunlaşdırma nədir?

Bu yazıda təklif olunan əsas anlayış peşəkar oyunlaşdırmadır. Peşəkar oyunlaşdırma müəllimlərin peşəkar öyrənmə reallıqlarına əsaslanan motivasiya dizaynı kimi başa düşülə bilər. Ənənəvi oyunlaşdırmadan fərqli olaraq, peşəkar oyunlaşdırma xalları, nişanları və liderlər cədvəlini öyrənmə prosesinin mərkəzinə qoymur. Onun əsas diqqəti müəllimin peşəkar inkişafını görünən edən mexanizmlərə yönəlir.

Bu anlayışı sadəcə "yaxşı peşəkar inkişaf"ın başqa adı kimi başa düşmək doğru olmaz. Peşəkar oyunlaşdırma peşəkar inkişafın məzmununu əvəz etmir. O, daha çox bu inkişafın necə təşkil olunduğuna diqqət yetirir. Yəni müəllimin irəliləyişi necə görünən edilir? Rəy necə davamlı və inkişafyönlü verilir? Peşəkar nailiyyət necə tanınır? Nümunəvi təcrübələr necə paylaşılır? Müəllimlər passiv iştirakçıdan real məhsul yaradan peşəkara necə çevrilir? Peşəkar oyunlaşdırma məhz bu suallara cavab axtarır.

Bu baxımdan peşəkar oyunlaşdırma müəllim öyrənməsinin üzərinə əlavə edilmiş səthi oyun elementi deyil. O, müəllim inkişafını mərhələli, izlənə bilən və peşəkar baxımdan mənalı edən dizayn məntiqidir. Burada məqsəd müəllimləri oyuna cəlb etmək deyil, onların peşəkar öyrənməsini daha davamlı və görünən etməkdir.

Peşəkar oyunlaşdırma bir neçə əsas elementdən ibarət ola bilər. Strukturlaşdırılmış irəliləyiş müəllimlərə sadə tapşırıqlardan daha mürəkkəb peşəkar fəaliyyətlərə doğru hərəkət etməyə imkan verir. Peşəkar tapşırıqlar müəllimlərdən passiv dinləyici olmağı deyil, real tədris materialları hazırlamağı tələb edir. Davamlı rəy müəllimlərin işlərini yenidən nəzərdən keçirməsinə və təkmilləşdirməsinə şərait yaradır. Həmkarlar tərəfindən tanınma nümunəvi praktikaları görünən edir. Əməkdaşlıq kollektiv öyrənmə mühiti yaradır. Fənnə uyğun iştirak isə təlimi müəllimin öz peşəkar konteksti ilə əlaqələndirir.

Bu yanaşmada sertifikat və tanınma sadəcə mükafat kimi başa düşülməməlidir. Onlar müəllimin göstərdiyi peşəkar inkişafı, hazırladığı işin keyfiyyətini və həmkarlarına verdiyi töhfəni görünən edən vasitələrdir. Beləliklə, müəllim yalnız iştirakçı deyil, həm də öyrənən, yaradan, düşünən və öz təcrübəsini başqaları üçün nümunəyə çevirən peşəkar kimi qəbul olunur.

### Süni intellekt dəstəkli peşəkar inkişaf proqramından nümunə

Peşəkar oyunlaşdırma anlayışı süni intellekt və düşünmə yönümlü tədrisə həsr olunmuş altı həftəlik peşəkar inkişaf proqramının hazırlanması zamanı formalaşmışdır. Proqramın məqsədi müəllimlərə yalnız süni intellekt alətlərindən istifadə etməyi öyrətmək deyildi. Əsas məqsəd bu alətləri dərs planlaşdırması, pedaqoji düşünmə, qiymətləndirmə və refleksiya ilə əlaqələndirmək idi.

Proqrama ilkin mərhələdə 140 müəllim qeydiyyatdan keçmişdir. Orientasiya sessiyasından və bir həftəlik qərar müddətindən sonra 80 müəllim iştirak etməyi seçmiş, 60 müəllim isə proqramı tamamlamışdır. Bu proses göstərirdi ki, iştirak məcburi deyil, müəllimlərin öz qərarı əsasında qurulmuşdu.

Bu proqram klassik mənada oyunlaşdırılmış təlim deyildi. Burada müəllimlər xal toplamır, nişan qazanmır, reytinqdə yarışmırdılar. Oyunlaşdırma daha çox proqramın quruluşunda özünü göstərirdi: müəllimlər mərhələlərlə irəliləyir, hər mərhələdə konkret peşəkar tapşırıq yerinə yetirir, rəy alır və hazırladıqları işi yenidən təkmilləşdirirdilər. Beləliklə, iştirak sadəcə dərsdə olmaqla deyil, görülən işin keyfiyyəti və inkişafı ilə ölçülürdü.

Proqramın əsas mexanizmlərindən biri həftəlik peşəkar tapşırıqlar idi. Müəllimlər düşünmə yönümlü dərs planları hazırlayır, süni intellektin yaratdığı materialları pedaqoji baxımdan qiymətləndirir və onları öz fənn kontekstlərinə uyğunlaşdırırdılar. Bu proses müəllimləri passiv dinləyici olmaqdan çıxarır, onları real dərs materialı hazırlayan və öz qərarlarını əsaslandıran iştirakçılara çevirirdi.

Davamlı rəy proqramın digər mühüm hissəsi idi. Rəy yalnız səhvləri göstərmək üçün verilmirdi. O, müəllimə işinin hansı hissəsinin güclü, hansı hissənin yenidən düşünülməli olduğunu və növbəti mərhələdə nəyi yaxşılaşdıra biləcəyini göstərirdi. Bu baxımdan rəy müəllim üçün irəliləyiş hissi yaradırdı. Müəllim motivasiyanı xal toplamaqdan deyil, öz işinin getdikcə yaxşılaşdığını görməkdən alırdı.

Nümunəvi işlərin paylaşılması da proqramda mühüm rol oynayırdı. Seçilmiş dərs planları və təlim nümunələri iştirakçılarla paylaşılırdı. Bu, müəllimlərə yaxşı hazırlanmış işin necə göründüyünü konkret nümunələr əsasında anlamağa kömək edirdi. Burada liderlər cədvəli yox idi, amma yaxşı təcrübənin tanınması var idi. Bu tanınma müəllimləri rəqabətə deyil, daha keyfiyyətli iş hazırlamağa və bir-birindən öyrənməyə yönəldirdi.

Müxtəlif fənlərdən olan müəllimlərin ayrı sessiyalarda işləməsi də proqramın mühüm tərəfi idi. Bu, verilən nümunələrin və rəylərin müəllimlərin öz fənn sahələrinə uyğunlaşdırılmasına imkan yaradırdı. Beləliklə, proqram ümumi texnoloji təlim kimi deyil, müəllimin real dərs konteksti ilə bağlı peşəkar inkişaf prosesi kimi qurulurdu.

Proqramın sonunda beş müəllim "Ustad müəllim" adına layiq görüldü. Bu ad onlara sadəcə iştirak etdiklərinə görə verilmədi. Onlar süni intellektdən texniki alət kimi yox, pedaqoji məqsədləri dəstəkləyən vasitə kimi istifadə etdilər. Düşünmə yönümlü dərs planları hazırladılar, süni intellektin yaratdığı materialları tənqidi qiymətləndirdilər, rəy əsasında işlərini təkmilləşdirdilər və digər müəllimlər üçün öyrənmə nümunəsi yaratdılar.

Bu proqram peşəkar oyunlaşdırmanın effektivliyini sübut edən yekun dəlil kimi təqdim olunmur. Bunun üçün ayrıca tədqiqat aparılmalıdır.

### Nəticə

Ənənəvi oyunlaşdırma daha çox şagird və tələbə öyrənməsi üçün formalaşıb. Müəllim öyrənməsi isə fərqli motivasiya məntiqi tələb edir. Burada əsas olan xal toplamaq, nişan qazanmaq və ya liderlər cədvəlində irəliləmək deyil. Əsas olan müəllimin peşəkar inkişafını görünən etmək, onun pedaqoji qərarlarını gücləndirmək və həmkarları ilə birlikdə daha mənalı öyrənmə mühiti yaratmaqdır. Peşəkar oyunlaşdırma bu baxımdan faydalı bir yanaşma ola bilər. O, oyunlaşdırmanı müəllim peşəkar öyrənməsinin prinsipləri əsasında yenidən şərh edir və diqqəti xarici mükafatlardan görünən peşəkar inkişafa yönəldir. Bu yanaşma müəllimləri oyuna cəlb etməkdən daha çox, onların peşəkar öyrənməsini mərhələli, rəyə əsaslanan və tanınan proses kimi təşkil etməyə yönəlir. Süni intellekt dövründə müəllim peşəkar inkişafının uğuru yalnız texnologiyanın necə öyrədilməsindən deyil, müəllimlərin bu texnologiya ilə necə düşündüyündən, necə qərar verdiyindən və öz peşəkar praktikasını necə inkişaf etdirdiyindən asılı olacaq.

**Murad ƏLİYEV,**
**Pekin Pedaqoji Universiteti**
**Rəqəmsal Təhsil Resursları Mərkəzinin tədqiqatçısı**

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# BAKI AVRASİYA UNİVERSİTETİ

## 2026/2027-ci tədris ilində universitetin aşağıdakı kafedralarında professor-müəllim vəzifələrinin tutulması üçün müsabiqə

# ELAN EDİR:

**KAFEDRALAR ÜZRƏ:**

| Kafedralar üzrə (sahələr göstərilməklə) | Professor-müəllim vəzifələri və ştat vahidləri üzrə yerlərin sayı | | | | | |
|---|---|---|---|---|---|---|
| | professor | dosent | baş müəllim | müəllim | | |
| | 1.0 | 1.0 | 1.0 | 1.0 | 0.75 | 0.5 |
| **Azərbaycan və dünya ədəbiyyatı kafedrası** | | | | | | |
| *Azərbaycan ədəbiyyatı* | 2 | 2 | 1 | | | |
| *dünya ədəbiyyatı (türk xalqları ədəbiyyatı daxil olmaqla)* | | | | | | |
| *ədəbiyyatşünalıq sahəsi* | | 1 | | | | |
| **Tərcümə kafedrası** | | | | | | |
| *ingilis dili sahəsi üzrə* | | 3 | 5 | 2 | | |
| *alman dili sahəsi üzrə* | | | 1 | | | |
| *fransız dili sahəsi* | | | 1 | 2 | | |
| *ərəb dili sahəsi üzrə* | | 2 | 1 | | | |
| **Nəzəri dilçilik və türk dilləri kafedrası** | | | | | | |
| *Azərbaycan dili sahəsi üzrə* | | 1 | 1 | 2 | | |
| *türk dili sahəsi üzrə* | | 1 | 1 | | | |
| *ümumi dilçilik, dil nəzəriyyəsi sahəsi üzrə* | | 3 | 1 | 1 | | |
| **Xarici dil və ədəbiyyat kafedrası** | | | | | | |
| *ingilis dili sahəsi üzrə* | | 1 | 4 | 11 | | |
| *ingilis ədəbiyyatı sahəsi üzrə* | | | 1 | 2 | | |
| *alman dili sahəsi üzrə* | | | | 1 | | |
| *ərəb dili sahəsi üzrə* | | | | 1 | | |
| *fransız dili* | | | | 1 | | |
| *rus dili* | | 1 | 1 | 3 | 1 | |
| *fars dili* | | | | 2 | | |
| **Sosial və siyasi fənlər kafedrası** | | | | | | |
| *siyasi elmlər* | | 5 | 2 | 3 | | |
| *dövlət və bələdiyyə idarəetməsi* | | | | 2 | | |
| *sosial iş* | | 1 | | 6 | | |
| *coğrafiya* | | | | | 1 | |
| **İqtisadiyyat kafedrası** | | | | | | |
| *iqtisadiyyat* | 1 | 6 | 3 | 8 | | |
| *maliyyə, mühasibat vergi* | | 4 | 2 | 5 | | |
| **Riyaziyyat və İKT kafedrası** | | | | | | |
| *riyazi fənlər* | | | 1 | 5 | | |
| *kompüter elmləri, informasiya texnologiyaları, proqramlaşdırma* | | 2 | | 9 | | |
| *ekonometrika, statistika* | | 2 | | 2 | | |
| **Biznes və menecment kafedrası** | | | | | | |
| *biznesin əsasları* | | 1 | 1 | 6 | | |
| *menecment* | | 5 | 1 | 3 | | |
| *marketinq* | 1 | | 1 | 1 | | |
| *turizm işinin təşkili* | | 1 | 1 | 5 | | |
| **Ümumi fənlər kafedrası** | | | | | | |
| *Azərbaycan tarixi* | | 1 | 1 | 1 | | |
| *hüquq* | | | 1 | 2 | | |
| *fəlsəfə, məntiq* | | | | 1 | | |
| *pedaqogika* | | | | | 1 | |
| *psixologiya* | | 1 | | | | 1 |
| *mülki müdafiə (ingilis dili bilikləri tələb olunur)* | | | | | | 1 |
| *mülki müdafiə* | | | | | 1 | |

**Professor-müəllim vəzifələrinin tutulması üçün müsabiqədə iştirak üçün tələblər (Vəzifəyə uyğunluq tələbləri)**

| Vəzifənin adı | Tələblər |
|---|---|
| Professor | Professorlar və elmlər doktorları |
| Dosent | Professorlar, dosentlər, elmlər doktorları və fəlsəfə doktorları (elmlər namizədləri) |
| Baş müəllim | Ən azı 3 illik elmi-pedaqoji stajı olan fəlsəfə doktorları (elmlər namizədləri). Ən azı 5 illik elmi-pedaqoji stajı olan yüksəkixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər). İstehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan yüksəkixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər). |
| Müəllim | Elmi-pedaqoji və ya ixtisası üzrə ən azı bir il iş stajı olan fəlsəfə doktorları (elmlər namizədləri). Ən azı 3 il elmi pedaqoji iş stajı olan ali təhsilli mütəxəssislər (magistrlər). İstehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan ali təhsilli mütəxəssislər (magistrlər).<br><br>**Qeyd:** Bu vəzifələrə eyni zamanda əyani doktoranturanı, assisentura stajkeçməni müvəffəqiyyətlə bitirmiş, eləcə də cari ildə ali məktəbi fərqlənmə diplomu ilə başa vurmuş və elmi-tədqiqat işinə meyli olan mütəxəssislər (magistrlər), həmçinin stajor müəllimlər təyinatla 3 ildən çox olmayan müddətə təyin edilə bilərlər. Həmin müddət bitdikdən sonra göstərilən vəzifələr müsabiqə yolu ilə tutulur. |

Müsabiqə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə" və "Bakı Avrasiya Universitetində professor-müəllim vəzifələrinin tutulması Qaydaları"na uyğun olaraq aparılır.

Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidir:

- *rektorun adına ərizə;*
- *kadrlar uçotunun şəxsi vərəqəsi;*
- *tərcümeyi-hal;*
- *ali təhsil haqqında diplomun surəti;*
- *elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti;*
- *dərc olunmuş elmi və tədris-metodik işlərin siyahısı;*
- *"Google Scholar", "Scopus", "Web of Science" akademik platformalarında müraciət tarixinə aid olan profillərinin surəti*

İddiaçıların elmi-pedaqoji fəaliyyəti, tədris prosesində yeni pedaqoji və informasiya-kommunikasiya texnologiyalarının, innovativ təlim üsullarının tətbiqi sahəsində əldə etdiyi təcrübə və nailiyyətləri, ixtisasının artırılması ilə bağlı digər sənədlər onların istəyi ilə əlavə olaraq təqdim edilə bilər.

Ali təhsil və elmi dərəcə haqqında sənədlər başqa ölkədə verildiyi halda ekvivalentlik haqqında müvafiq sənəd təqdim edilməlidir.

Müvafiq vəzifələr üzrə peşə - ixtisas tələbləri, tədris olunacaq fənlər, müsabiqənin keçirilməsi qaydaları ilə bağlı əlavə məlumat almaq üçün universitetin **www.baau.edu.az** rəsmi veb-səhifəsində **"İşə qəbul: vakansiyalar və müsabiqələr"** bölməsinə müraciət edilə bilər.

Sənədlərin qəbulu elanın dərc edildiyi tarixdən 1 (bir) ay müddətinə aparılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər ərizə ilə birlikdə icra aparatına (204-cü otaq) və ya **cv.vacancy@baau.edu.az** ünvanına (ərizə imzalanıb skan edilib əlavə olunmaqla) təqdim olunmalıdır.

**Ünvan:** *AZ 1110, Bakı şəhəri, İsa Bulağı küçəsi, 18 (əvvəlki akademik Həsən Əliyev küçəsi,135 A)*

**Əlaqə:** *+994125646367 (daxili nömrə 108)*

**www.baau.edu.az, info@baau.edu.az**

**Rektorluq**

## Müəllimlər üçün süni intellekt təlimlərinə start verilir

"Azərbaycan Respublikasının 2025—2028-ci illər üçün Süni İntellekt Strategiyası"nda müəyyən edilmiş prioritet istiqamətlərə uyğun olaraq reallaşdırılan "SİMM — Süni İntellektlə Müasir Məktəb" təşəbbüsünə dəstək verir.

Layihə təhsil sahəsində süni intellekt texnologiyalarının tətbiqinin təşviqinə yönəlib. Bu çərçivədə Bakı, Qarabağ və Gəncədə fəaliyyət göstərən ümumtəhsil məktəblərinin 120-dən çox müəllimi süni intellekt üzrə təlimlərə cəlb olunacaq. Layihənin əsas məqsədi məktəblərdə müasir texnologiyaların tətbiqini təşviq etmək, müəllimlərin süni intellekt alətlərindən tədris prosesində effektiv, təhlükəsiz və etik şəkildə istifadə bacarıqlarını inkişaf etdirməkdir.

Təşəbbüsün fərqləndirici xüsusiyyətlərindən biri onun kaskad modeli əsasında həyata keçirilməsidir. Belə ki, təlim proqramını uğurla başa vuran müəllimlər əldə etdikləri bilik və bacarıqları öz həmkarları ilə bölüşərək layihənin təsir dairəsinin genişlənməsinə dəstək olacaqlar.

Layihənin yekununda ən yüksək nəticə göstərən üç müəllim xüsusi mükafatlarla təltif olunacaq.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 15754 **Sifariş:** 827

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Musayev Aslan Yaqut oğluna verilmiş C-183904 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**ADA-Universiteti** tərəfindən 2019-cu ildə Cəfərov Aqşin Mətin oğluna verilmiş 015078 nömrəli akademik transkript sənədi itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Şıxımlı kənd (keçmiş Köhnəbazar) tam orta ümumtəhsil məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Əliyeva Aysun Səxavət qızına verilmiş C-095198 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad** 36 nömrəli texniki peşə məktəbi tərəfindən 1991-ci ildə Rufullayev İlham Yadulla oğluna verilmiş 367750 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** C.Rüstəmov adına tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Bayramova (Rəhimova) Sevda Eyvaz qızına verilmiş B-734389 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Fizika-riyaziyyat və informatika təmayüllü liseyi** 2019-cu ildə bitirmiş Ələkbərli Ümid Ağəli oğluna verilmiş E-185969 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 21 mömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Quluzadə Könül Famil qızına verilmiş E-151145 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abdullayev Turqay Təvəkkül oğluna verilmiş A-196980 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Behbudova İnarə Qürbət qızına verilmiş B-636324 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 250 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Həsənova Hüsniyyə Şahin qızına verilmiş C-166809 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 52 nömrəli tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş Əkbərov Arif Seyfulla oğluna verilmiş 251424 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** G.Əsgərova adına məktəb-lisey kompleksi 2005-ci ildə bitirmiş Dünyamaliyev Zaur Qədir oğluna verilmiş B-172090 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Sultanov Cəmil Maşallah oğluna verilmiş E-405766 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dövlət Sərhəd Xidmətinin Akademiyası** tərəfindən 2021-ci ildə Hacızadə Səyyad Teymur oğluna verilmiş C-091712 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Mehdiabad qəsəbə** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Qaçayev İlkin Müşviq oğluna verilmiş A-532697 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ocaqlı kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Mustafayeva Afaq Rövşən qızına verilmiş 033348 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 74 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Əhmədzadə Mustafa Əhməd Şoaib oğluna verilmiş A-613394 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli Peşə Liseyi (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1999-cu ildə Hümbətov Niyaməddin Tahir oğluna verilmiş AB-009345 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 7 nömrəli tam orta məktəb tərəfindən 2023-cü ildə Hüseynli Məhəmməd Elxan oğluna verilmiş E-539893 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 103 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş İbrahimov Əşrəf Hafiz oğluna verilmiş A-297832 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli Texniki və Humanitar fənləri təmayüllü məktəb-liseyi 2024-cü ildə bitirmiş Feyzullayeva Dərya Bilal qızına verilmiş E-726298 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univesiteti** tərəfindən 1994-cü ildə Abdullayev Coşqun Mənsur oğluna verilmiş AB-I-034708 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 6 nömrəli məktəb-liseyi 2020-ci ildə bitirmiş Kərimli Nəzrin Xalid qızına verilmiş E-289000 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 2001-ci ildə (indiki 1 nömrəli Bakı Tibb Kolleci) Hüseynova Aytən Xanlar qızına verilmiş AB-II-063656 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Abdullayev Vaqif Elçin oğluna verilmiş A-172690 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Ağayev Orucəli Xanağa oğluna verilmiş C-859136 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Kələyev Emil Ramin oğluna verilmiş E-549371 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 1 nömrəli tam orta məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Allahverdiyev Rauf Rəhman oğluna verilmiş A-367180 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Hacızadə Günel Mobil qızına verilmiş C-102397 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Kakalos kənd tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Əhmədov Valeh Rahim oğluna verilmiş A-071681 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 1993-cü ildə Eyvazova (Balaoğlanova) Xanım Ağalar qızına verilmiş PT-I-120660 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 283 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əmirova Arzu Habilovnaya verilmiş E-534455 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2011-ci ildə Qasımova Rübabə Sahib qızına verilmiş B-222616 nömrəli bakalavr diplomu və diploma əlavə, 2015-ci ildə verilmiş AM-005890 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Rəhimli Ülkər Xalid qızına verilmiş E-537108 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 132-134 nömrəli təhsil kompleksi 2021-ci ildə bitirmiş Əliyev Uğur Qafar oğluna verilmiş E-374457 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Həsənli Jalə Siyafər qızına verilmiş A-516120 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Rəhimli İbrahim Rəhim oğluna verilmiş E-628345 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 260 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Quluzadə Vaqif Rövşən oğluna verilmiş E-546356 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** humanitar fənlər təmayüllü 1 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş Bayramova Mirgünay Məmməd qızına verilmiş A-564989 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 26 nömrəli Fizika-riyaziyyat və informatika təmayüllü məktəb-liseyi 2003-cü ildə bitrrmiş Həsənov Əkbər Parlax oğluna verilmiş A-721085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 67 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş İsazadə Allahverdi Sabir oğluna verilmiş E-552809 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan müəllimi" qəzetinin baş mühasibi Vüsal Quliyev ailəsi ilə birlikdə BDU-nun Hüquq fakültəsinin müəllimi Cabir Quliyevə atası Bakı Dövlət Universitetinin professoru

**MƏHƏMMƏD QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.